https://doi.org/10.59849/3006-1342.2026.2.34
UOT 372.8:94

*Məhəmməd Allahverdi oğlu Hüseynov*
*Azərbaycan Dövlət Pedaqoji Universitetin Ağcabədi filialı*
*t.ü.f.d., dosent*
*E-mail: akif-bat@mail.ru*

# TARİX FƏNNİNİN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYA

Müasir təhsil sistemində fənlərarası inteqrasiya tədrisin keyfiyyətinin artırılmasında əvəzsiz rol oynayır. Xüsusilə tarix fənni öz inteqrativ təbiəti etibarilə bu prosesin mərkəzində dayanır. Tarixin tədrisində fənlərarası əlaqələrə müraciət etmək təhsilalanların müstəqilliyini, tənqidi və məntiqi düşüncəsini inkişaf etdirir, onların dünyagörüşünü genişləndirir.

Tarix elmi həm əsas fənlərlə - fəlsəfə, ədəbiyyat, coğrafiya, riyaziyyat, kimya, biologiya, astronomiya - həm də köməkçi elmlərlə- arxeologiya, numizmatika, etnoqrafiya, toponimika, heraldika, paleoqrafiya və epiqrafika - sıx əlaqə qura bilir. Bu inteqrasiya tarixi hadisələrin müxtəlif aspektlərdən dərindən anlaşılmasına, tarixi faktların maddi sübutlarla təsdiqlənməsinə və tədrisin daha maraqlı, əyani şəkildə qurulmasına imkan yaradır.

Azərbaycan təhsil sistemində inteqrasiya prinsipi 2009-cu il Təhsil Qanunu ilə rəsmiləşdirilmiş, beynəlxalq təhsil standartlarına uyğunlaşdırılmışdır. Şaquli inteqrasiya tarixi mərhələlər arasındakı ardıcıllığı, üfüqi inteqrasiya isə tarixi hadisələrin digər elm sahələri ilə əlaqəsini təmin edir. Bu yanaşma mexaniki əzbərçilikdən uzaqlaşaraq biliklərin həyati vəziyyətlərə tətbiq olunmasına şərait yaradır.

Beləliklə, fənlərarası inteqrasiya müasir dövrün tələblərinə cavab verən, düşünən, tədqiqatçı şəxsiyyət yetişdirən əvəzsiz bir təhsil prinsipidir. Müəllimlərin bu sahədəki yüksək peşəkarlığı isə inteqrasiyanın uğurlu tətbiqinin əsas şərtidir.

*Açar sözlər:* İnteqrasiya, fənlərarası əlaqələr, interaktiv, arxeologiya, toponimika

## *Giriş*

XXI əsr bəşəriyyət tarixində texnologiya əsri kimi xarakterizə olunduğu qədər, həm də elmlərarası və fənlərarası inteqrasiya dövrü kimi tanınır. Müasir dövrümüzdə elmlər arasında sərhəd olmadığı kimi, fənlər arasında da süni sərhədlər artıq öz əhəmiyyətini itirmişdir. Ayrı-ayrı fənlərin, xüsusilə tarixin tədrisi zamanı fənlərarası əlaqələrə müraciət etmək tədris prosesinin səmərəli qurulmasında, tədrisin keyfiyyətinin yüksəldilməsində, öyrənənlərin fəallığının və müstəqilliyinin artırılmasında həlledici rol oynayır [1, s.45-48]. İnteqrasiya təhsilalanların praktik, elmi-nəzəri hazırlığını artırmaqda, məntiqi və tənqidi anlayışları ümumiləşdirmək bacarıqlarını təkmilləşdirməkdə mühüm əhəmiyyət kəsb edir. Təhsil materialının fənlərarası əlaqəsini öyrənmək tədris fəaliyyətinin ümumi priyomları, tədris metodlarının interaktiv inkişafı üçün əlverişli şərait yaradır [5, s.32-35]. Tədris materialının məzmunu və əqli əməyin keyfiyyəti ilə fənlərarası əlaqə, təhsilalanların bilik fəaliyyətinin elmi əsaslar üzərində qurulmasına imkan verir. Bu da onların bir şəxsiyyət kimi yetişməsinə, yaradıcılıq qabiliyyətlərinin inkişafına, reallığın təməl problemlərinin dərindən öyrənilməsi üçün maariflənmələrinə, zəkalı mütəxəssislərin hazırlanmasına kömək edir. Fəndən və fənlərarası inteqrasiyadan öyrənilən anlayışları, mövzuları və ya hadisələri inkişaf etdirərək tədris təmin edilir. İnteqrasiya, orta və ya ali təhsildə, bütün mövzular arasındakı əlaqəni bu və ya digər materiallarla təmin edərək, onları görünməz tellərlə bir tam halında birləşdirir.

Tarix elmi öz təbiəti etibarilə ən inteqrativ sahədir, çünki tarixi kontekstdən yanaşaraq arzu olunan hər hansı bir elmlə məntiqi əlaqə qurmaq mümkündür. Tarixlə əsas və köməkçi

elmlər arasındakı əlaqəni araşdıraraq kainatın və insan inkişafının tarixi qanunauyğunluğunu təyin etmək mümkündür. Tarixin inteqrativ tədrisi tarixi hadisələrə müxtəlif aspektlərdən yanaşmanı izləyir və onun daha aydın, təfərrüatlı başa düşülməsini təşviq edir. Tarix elminin texniki, humanitar və təbiət məsələləri ilə sıx əlaqəsinin araşdırılması zamanı məktəblərdəki fənlərarası əlaqənin daha dərindən öyrənilməsi zərurəti yaranır. Beynəlxalq təhsil sisteminə sürətli inteqrasiya Azərbaycanda təhsilin yeni bir istiqamətdə inkişafını təmin edir. Dünyanın inkişaf etmiş ölkələrinin təhsil modellərinin Azərbaycan Respublikasının ümumi təhsil pilləsində tətbiqi təhsil nailiyyətlərinin yüksək səviyyədə həyata keçirilməsinə əsaslanır. Əsas məqsəd təhsilalanlara bir-biri ilə inteqrativ bağlılıqda olan fənlər haqqında ətraflı məlumat vermək, onlarda lazımi bacarıqların formalaşdırılmasında inteqrasiyanın rolunun əhəmiyyətli dərəcədə böyük olduğunu vurğulamaqdır. Onlar gerçəkliyi başa düşmək və qiymətləndirmək, analitik və sintetik yanaşmanı ahəngdar şəkildə təşkil etmək, tarixi qanunauyğunluqları dərk etmək üçün inteqrasiyanın mahiyyətini anlamalıdırlar.

Müasir təhsil sistemində nəzəri cəhətdən səmərəli olan Azərbaycan təhsilinə mütərəqqi təcrübələr, yenilikçi fikirlər, təhsilin məqsəd və vəzifələrinə yeni perspektivlər və yanaşmalar gətirilmişdir. Təhsil sistemimizdə məqsədyönlü islahatların aparılmasıyla təhsilimiz dünya təhsil sisteminin uyğun standartlarına uyğunlaşdırılmışdır [3, s. 112-115]. 2009-cu il tarixli müvafiq qanunvericilik aktlarında göstərilən on bir prinsipdən biri olan inteqrasiya prinsipi, milli zəminə və humanitar dəyərlərə əsaslanan dünyəvi bir təhsil sisteminin qurulmasını əsaslandırır *[4, maddə 4]*. Bu vəzifələrin icrası Azərbaycan təhsil sisteminin qloballaşan dünyamızda beynəlxalq təhsil sisteminə uğurla inteqrasiyasına və yeni keyfiyyət səviyyəsinə çatmasına xidmət edir. Təhsil prosesinin düzgün və effektiv təşkili təhsilalanların fərdiliyini və müstəqilliyini artırmaq üçün vacib komponentdir. Təhsil prosesindəki fənlərarası əlaqələr bugün elm, istehsal və ictimai həyatda yaşanan inteqrasiya proseslərinin konkret ifadəsidir. Bu, təhsilalanların idrak səmərəliliyini, müstəqilliyini və ümumiləşdirmə qabiliyyətini artırır, eyni zamanda onların idrak fəaliyyətinin, məntiqi və tənqidi təfəkkürünün inkişafına stimul verir. İnteqrativ dərslərdə inteqrasiya olunmuş elm, ona kömək etmək üçün seçilmiş materiallar daha dərin, geniş və daha aydın bir mənimsəmə ilə təmin olunur.

Tarix həm fəlsəfə, ədəbiyyat, fizika, kimya, coğrafiya, dilçilik, biologiya, astronomiya, riyaziyyat kimi əsas fənlərlə, həm də arxeologiya, numizmatika, arxeoqrafiya, demoqrafiya, toponimika kimi köməkçi elmlərlə inteqrasiya oluna bilir. XX əsrin ortalarından etibarən dünya təhsil sistemində başlayan inteqrasiya məsələsi sonradan Azərbaycanda da geniş araşdırılmağa başlanmışdır. Bir çox yerli və xarici mütəxəssis inteqrasiyanın inkişafı və tətbiqetmə problemlərini müxtəlif dərəcədə təhlil etmişlər. SSRİ-nin ilk süni peykinin kosmosa göndərilməsi dünyanın, xüsusən Amerikanın təhsilə olan münasibətini kökündən dəyişdirdi və bu, digər ölkələrə də ciddi təsir göstərdi. Türkiyə kimi ölkələr beynəlxalq təcrübələri bölüşmək məqsədi ilə mütəxəssis qrupları göndərmiş və yeni təhsil modelləri hazırlayaraq tətbiq etməyə başlamışlar. Bu yeni təlim sənədlərindən bir çox ölkələr, o cümlədən Azərbaycan da faydalanmışdır. İnteqrasiya latın dilində bir hissə, hissələrin tam bir şəkildə birləşməsi anlamına gəlir. İnteqrativ təlim modelində fərdin inkişafına və müstəqilliyinə xüsusi diqqət yetirilir, onun şəxsiyyət kimi inkişafına böyük əhəmiyyət verilir. Bu modeldə təhsilalanlar yüksək üstünlüklərə malikdirlər; fərdi inkişaf, cəmiyyətdəki öz mövqelərini dərk etməkdə müstəqillik, alternativ tədris metodlarından və müxtəlif tədris vasitələrindən istifadə etmək əsas götürülür.

Fənlərarası münasibətlər çoxyönlü bir problemdir. Böyüyən gənc nəslin normal inkişafını təmin etmək üçün onlar yalnız müəyyən teoremləri mənimsəməməli, analiz və sintez etməyi bacarmalıdırlar. Müxtəlif fənlər arasında əlaqələrin yaradılması problemi tarixin müxtəlif dövrlərində görkəmli pedaqoqlar tərəfindən inkişaf etdirilmişdir. Bəzi mütəfəkkirlər fənlərarası əlaqələrin qurulmasının zəruriliyini psixoloji cəhətdən əsaslandırmağa çalışmış,

coğrafi biliklərin əhəmiyyətini ortaya qoymuşdular. Psixoloji və pedaqoji cəhətdən əsaslandırılmış inteqrasiya fikri tamamlanmış dünyagörüşünün formalaşmasına xidmət edir. Yerli metodistlər fənlərarası əlaqəni təlimin başlıca məqsədi və didaktik prinsiplər kateqoriyasına daxil olan mühüm vasitə kimi qəbul edirlər [2, s. 84-87]. Onların fikrincə, fənlərarası əlaqələr tədris proqramına, dərsliklərin quruluşuna, təhsilin məzmununa, metod və formaların seçilməsinə aktiv şəkildə müdaxilə edir [5, s.68-71]. Bu proses biliklərin bacarıqlara çevrilməsində və təhsilalanların kompetensiyalara malik olmasında əhəmiyyətli rol oynayır [1, s. 124-128]. Şagirdlərə dünyanın müasir elmi mənzərəsini formalaşdırmağa imkan verilməlidir. Dünyaya belə bir baxış yalnız gerçəkliyin analitik və sintetik icmalının təhlili ilə şagirdlərin xəyalında qurula bilər.

İnteqrasiyanın tətbiq olunduğu təhsil sahəsi yeniliklərin tətbiqinə və islahatların aparılmasına təkan verir. Sürətli informasiya texnologiyaları və insan münasibətlərinin intensivliyi hadisələri alternativ perspektivlərlə qiymətləndirmə imkanlarını artırır. Tarixi proses həmişə qlobal baxımdan ölçülür və müxtəlif aspektlərdən yerli mədəniyyətlərin öyrənilməsinə qədər həll olunur. Bu da öz növbəsində tarixdə subyektiv anlayışların yaranması üçün bir mühit yaradır, zaman, məkan, dövlət, mədəniyyət və inkişaf kimi anlayışların mahiyyətinin dəyişməsinə səbəb olur. Tarix elminin tədrisində müxtəlif elmlərlə əlaqə qurarkən köməkçi fənlərə müraciət etmək zəruridir. Arxeologiya, etnoqrafiya, numizmatika və heraldika kimi sahələr tarixi faktların doğruluğunu təsdiqləyən maddi sübutlar təqdim edir. Tarix ilə dilçilik arasındakı əlaqə isə cəmiyyətin düşüncə tərzini anlamağa kömək edir. Dildə istifadə olunan mətnin xüsusiyyətlərini bilmək tarixi tədqiqatlar üçün kifayətdir. Məsələn, müəyyən tarixi dövrlərə aid sənədləri təhlil etmək üçün həmin dövrün rəsmi dillərini və əlifbalarını bilmək tələb olunur.

Tarix təhsili tarixi həqiqətlərə söykənirsə, yazıların tanınması ilə məşğul olan paleoqrafiyaya və kitabələrin oxunuşu ilə məşğul olan epiqrafikaya böyük ehtiyac var. Epiqrafik abidələr tarixi hadisələrin əyani görüntüsünü yaratmağa kömək edir. Heraldika isə möhürlər və emblemlər vasitəsilə dövlətçilik rəmzlərini aydınlaşdırır. Toponimika vasitəsilə yer adlarının mənşəyini araşdırmaqla Azərbaycanın orta əsr şəhərlərinin tarixini daha dərindən öyrənmək mümkündür. Numizmatika sikkələrin tədqiqi vasitəsilə dövlətin iqtisadi-sosial vəziyyəti barədə məlumat verir. Arxeologiya maddi-mədəniyyət nümunələri, silahlar və tapıntılar əsasında tarixi faktların təhlilini həyata keçirir. Etnoqrafiya və etnologiya isə xalqların adət-ənənələrini və inkişaf xüsusiyyətlərini araşdıraraq tarix elminə zəngin material təqdim edir.

Fəlsəfə elmi tarixi hadisələrin səbəb-nəticə əlaqələrini və qanunauyğunluqlarını üzə çıxarmaqda mühüm rol oynayır. Hadisələrə fəlsəfi yanaşma gənc nəslin induktiv və deduktiv düşünmə qabiliyyətinə müsbət təsir göstərir. Dünya tarixinin tədrisində müxtəlif filosofların baxışları sivilizasiyaların mövcudluq şərtləri haqqında fəlsəfi izah verir. Tarixin tədrisində coğrafi məlumatlarla əlaqə qurmaq dövlətlərin geosiyasi vəziyyətini şərh etməyə imkan verir. “Tarixi coğrafiya” kimi yeni bir sahənin inkişafı bu iki fənnin sıx təmasının nəticəsidir. Mədəni irsin öyrənilməsi zamanı şifahi yaradıcılığa və folklora müraciət olunur. Mifoloji ədəbiyyat və dastanlar, xüsusən “Kitab-i Dədə Qorqud” Azərbaycan tarixinin öyrənilməsində xüsusi yer tutur. Riyaziyyat ilə inteqrasiya zaman oxu və rəqəmsal resurslarla tarixi tarixlərin dəqiq ifadəsini təmin edir. Kimya elmi bürünc və dəmirin kəşfi kimi texnoloji mərhələlərin izahında, biologiya isə qədim insan tipləri və irqlərin tədqiqində iştirak edir. Astronomiya isə dünyanın və kainatın tarixinin birgə öyrənilməsinə şərait yaradır.

İnteqrasiya olunmuş tarix fənni tədris prosesini daha maraqlı və anlaşıqlı edir. Bu yanaşma şagirdlərin elmi perspektivinin hərtərəfli inkişafına kömək edir, sivilizasiyaların formalaşması və Azərbaycanın dünya mədəniyyətindəki rolu haqqında dərindən məlumat verir. Təhsilalanlar müxtəlif dövlətlərin inkişaf meyllərini müqayisə edir, tarixi mənbələri

sistemləşdirir və təqdim edirlər. Müasir təhsil prinsipi olan inteqrativlik vasitəsilə şagird təhsildə aparıcı subyektə çevrilir. Məqsəd yalnız hadisələri öyrənmək deyil, həm də əldə edilmiş biliklərdən müxtəlif vəziyyətlərdə istifadə etməkdir. Bu cür dərslər şagirdlərə məktəb daxilində və xaricində aldıqları məlumatları sintez etməyə kömək edir.

Tarixin tədrisində inteqrasiyadan istifadə tənqidi düşüncəni inkişaf etdirir. Lakin bu prosesdə ölçü hissi qorunmalıdır ki, təhsilalanlar əsas biliklərdən yayındırılmasın. Azərbaycan tarixinin məzmunu yüksək dərəcədə inteqrativdir və həm şaquli, həm də üfüqi inteqrasiya prinsiplərini tələb edir. Şaquli inteqrasiya tarixi mərhələlərin bir-biri ilə əlaqəsini, üfüqi inteqrasiya isə həyatın bütün sahələrinin və digər elmlərin tarix dərslərində əks olunmasını təmin edir. Müasir dünya təcrübəsində inteqrativ öyrənmə təhsilalanlara yeniliklərə uyğunlaşmaqda və biliklərini həyata müvəffəqiyyətlə tətbiq etməkdə kömək edir. Beləliklə, tarixin tədrisində fənlərarası inteqrasiya diqqətlə yanaşılmalı olan vacib bir təhsil prinsipidir.

Fənlərarası inteqrasiyanın daha bir mühüm tərəfi təhsilalanlarda müstəqil tədqiqat vərdişlərinin formalaşmasıdır. Tarix dərslərində digər elmlərə məxsus metodların tətbiqi şagirdlərdə elmi araşdırmaya maraq oyadır. Məsələn, sosiologiyanın metodları vasitəsilə müəyyən tarixi dövrün cəmiyyət strukturunu təhlil etmək və ya iqtisadiyyatın prinsipləri ilə dövlətlərin tənəzzül səbəblərini araşdırmaq mümkündür. Bu, öyrənmə prosesini mexaniki yaddaşdan uzaqlaşdıraraq məntiqi dərketmə müstəvisinə keçirir. Tədris olunan dərslərin maksimum dərəcədə mənimsənilməsi üçün inteqrasiya bazasına sahib olmaq müasir müəllimin qarşısında duran əsas tələblərdəndir [2, s. 142-145]. Qərb təhsil modellərində bu prinsiplər təhsilin fərdiləşdirilməsi və effektivliyinin artırılması məqsədilə geniş istifadə olunur [3, s. 204-208].

Tarixin digər elmlərlə inteqrasiyası həm də gənc nəslin etik və estetik dünyagörüşünə təsir edir. İncəsənət və memarlıq tarixinə dair məlumatların tarix dərslərinə daxil edilməsi tələbələrdə milli və bəşəri dəyərlərə hörmət hissini gücləndirir. Dünya mədəniyyətinin həqiqi əsərlərindən və modellərindən istifadə inteqrasiya prosesinin daha yüksək səviyyədə reallaşması üçün münbit şərait yaradır. İnteqrativ dərslər zamanı müxtəlif fənlərə aid anlayış, bilik və bacarıqların sintezi nəticəsində təlim nəticələri daha dayanıqlı olur [1, s.310-315]. Bu cür yanaşma təhsil səviyyəsini artıraraq gələcəyin zəkalı mütəxəssislərinin yetişməsinə imkan verir.

## *Nəticə*

Yekun olaraq qeyd etmək olar ki, inteqrasiya təhsil sisteminin ayrılmaz hissəsidir və onun düzgün tətbiqi tədrisin müasir dövrün tələblərinə uyğun qurulmasına xidmət edir. Tarix fənni bu prosesdə mərkəzi yerlərdən birini tutur. Müəllimlərin bu sahədə bilik səviyyəsinin yüksək olması və inteqrasiya imkanlarından bacarıqla istifadə etməsi təlimin səmərəliliyini artırır. Azərbaycanın zəngin tarixi və mədəniyyəti bu cür fənlərarası yanaşmalar üçün geniş perspektivlər açır və gələcək nəsillərin dünyagörüşünün formalaşmasında mühüm əsas təşkil edir.

## ƏDƏBİYYAT


1. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodu (Ali məktəblərin Tarix fakültəsi tələbələri üçün dərslik). Bakı: ADPU-nun nəşriyyatı, 2011, 700 s.
2. Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf, 2007, 271 s.
3. Süleymanova A.Y. Ali məktəblərin bakalavr pilləsində “Təhsilin əsasları” fənninin təlim materialları. Bakı: Təhsil, 2014, 400 s.
4. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Azərbaycan Respublikasının Milli Məclisi, 2009.
5. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı: UNISEF, 2007, 149 s.

УДК 372.8:94

*Мохаммед Аллахверди оглы Гусейнов*
*Агджабединской филиал Азербайджанского*
*Государственного Педагогического Университета*

МЕЖПРЕДМЕТНАЯ ИНТЕГРАЦИЯ В ПРЕПОДАВАНИИ ИСТОРИИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* интеграция, межпредметные связи, интерактивный подход, археология, топонимика

В современной системе образования межпредметная интеграция играет незаменимую роль в повышении качества обучения. Особое место в этом процессе занимает история, поскольку по своей природе она является наиболее интегративной дисциплиной. Обращение к межпредметным связям в преподавании истории развивает самостоятельность учащихся, их критическое и логическое мышление, расширяет их мировоззрение.

Историческая наука тесно связана как с основными дисциплинами - философией, литературой, географией, математикой, химией, биологией, астрономией, - так и со вспомогательными науками - археологией, нумизматикой, этнографией, топонимикой, геральдикой, палеографией и эпиграфикой. Такая интеграция позволяет глубже понять исторические события с различных точек зрения, подтвердить исторические факты материальными доказательствами и сделать процесс обучения более интересным и наглядным.

В системе образования Азербайджана принцип интеграции был закреплён Законом об образовании 2009 года и приведён в соответствие с международными образовательными стандартами. Вертикальная интеграция обеспечивает последовательность между историческими этапами, а горизонтальная - связь исторических событий с другими областями науки. Такой подход способствует отходу от механического заучивания и создаёт условия для применения знаний в жизненных ситуациях.

Таким образом, межпредметная интеграция является незаменимым образовательным принципом, отвечающим требованиям современной эпохи и способствующим воспитанию думающей, исследовательской личности. Высокий профессионализм педагогов в данной области служит главным условием успешного применения интеграции.

UDC 372.8:94

*Mohammed Allahverdi Huseynov*
*Aghjabadi Branch of Azerbaijan State Pedagogical University*

INTERDISCIPLINARY INTEGRATION IN THE TEACHING OF HISTORY
*SUMMARY*

*Keywords:* integration, interdisciplinary connections, interactive learning, archaeology, toponymy

In the modern education system, interdisciplinary integration plays an indispensable role in improving the quality of teaching. History, by its very nature as one of the most

integrative disciplines, occupies a central place in this process. Incorporating interdisciplinary connections into the teaching of history develops learners' independence, critical and logical thinking, and broadens their worldview.

Historical science is closely connected both with core subjects such as philosophy, literature, geography, mathematics, chemistry, biology, and astronomy, and with auxiliary disciplines such as archaeology, numismatics, ethnography, toponymy, heraldry, palaeography, and epigraphy. This integration allows historical events to be understood more deeply from various perspectives, enables historical facts to be verified through material evidence, and makes the learning process more engaging and illustrative.

In Azerbaijan's education system, the principle of integration was formally established by the Education Law of 2009 and aligned with international educational standards. Vertical integration ensures continuity between historical periods, while horizontal integration connects historical events with other fields of science. This approach moves away from mechanical memorization and creates conditions for applying knowledge to real-life situations.

In conclusion, interdisciplinary integration is an essential educational principle that meets the demands of the modern era and fosters the development of thoughtful, research-oriented individuals. A high level of professional competence among teachers in this field is the primary condition for the successful implementation of integration.

***Daxil oldu: 05.03.2026-cı il***